**Fidan Azər qızı Nəzirova** [112]

# CÜMHURİYYƏT ƏDƏBİYYATINDA QADINLARIN TƏHSİLİ MƏSƏLƏSİ

Qadınların təhsili məsələsi cəmiyyətin inkişafında mühüm rol oynayan və cəmiyyətin tərəqqisi üçün vacib hesab olunan amillərdən biridir. Osmanlı dövründə qadınların təhsil alma imkanları geniş olmasa da, Cümhuriyyət dövründə, xüsusilə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə keçirilən bir sıra qanunlar və islahatlar nəticəsində qadınların ibtidai və orta təhsil alması məcburi oldu. 3 mart 1924-cü ildə Türkiyə Böyük Millət Məclisi (TBMM) tərəfindən qəbul edilən Tövhidi-Tədrisat Qanunu ilə müasir təhsilin təməli qoyularaq, bütün təhsil müəssisələri dövlət nəzarətinə keçmiş, oğlan və qız şagirdlər bərabər şəraitdə təhsil almağa başlamış, dini və siyasi məqsədlərə xidmət edən məktəblərdə təhsil almaq qadağan edilmiş, qadınların təhsil alması hüquqi çərçivəyə salınmışdır. Bu qanun, qadınların təhsili məsələsi və cəmiyyətdəki rolunda ilk və mühüm addımlardan biri olmuşdur. 1926-cı il fevralın 17-də qəbul edilən və 4 oktyabr 1926-cı ildə qüvvəyə minən Türk Mülki Məcəlləsi Atatürkün türk qadınlarının hüquqları ilə bağlı çıxardığı növbəti qanunlardan biridir. Bu qanun İsveçrə Mülki Məcəlləsindən götürülərək türk cəmiyyətinə uyğun formalaşmışdır. Türk qadınlarını əsrlər boyu basdırdıqları qaranlıqdan çıxarıb aydınlığa qovuşdurmuş, kişilərlə bərabər hüquqlar, səlahiyyətlər və məsuliyyətlərlə təmin edərək şəxsiyyət sahibi etmiş, ailə və cəmiyyətdə layiqli mövqeyini tutmasına şərait yaratmışdır [2, s. 78]. Türk Mülki Məcəlləsi ilə qadınlar boşanma, miras və əmlak hüquqları baxımından bərabərlik əldə etmiş, hər iki cins üçün nikah yaşı 17 müəyyən edilmiş, qadınlara evləndikdən sonra da yazılı müraciət edərək əvvəlki soyadından istifadə etmə hüququ verilmiş, evlilikdəki məcburiyyətlərindən azad edilmişdir.

Osmanlı dövründə qadınları seçki hüququ yox idi. 1933-cü ildə Mülki Məcəllənin verdiyi qanuni hüquqlar çərçivəsində türk qadınları ilk dəfə bələdiyyə seçkilərində iştirak edərək qadınlara səsvermə və seçilmə hüququ verilmiş, yerli idarəetmələrdə vəzifələrə təyin edilmişdir. Bununla da qadınların siyasi hüquqları genişlənmiş, 1937-ci ildə türk qadını 18 nümayəndəsi ilə birlikdə parlamentə daxil ola bilmişdir. 1950-ci illərdən sonra qadın hüquqları daha da genişlənmişdir. Bunda mətbuatın rolu da çox böyükdür. Qadınlara verilən hüquqlar çərçivəsində mətbuatda qadınlardan bəhs edilən qəzet və jurnalların sayı da artmışdır. Bu qəzet və jurnallar; Cümhuriyyət qadını, Türk qadın yolu, Qadın yazıları, Qadın dünyası və başqalarıdır. Burada yazılan məqalələr, türk qadınlarını məlumatlandırmaq və ictimai həyatda daha da fəallaşdırmaq məqsədi daşıyırdı. Bu illərdə qızların məktəbə getmə faizi artmış, qadınlar iş həyatına atılmış, qadın müəllimlərin və deputatların sayında dəyişikliklər müşahidə edilmişdir. Cümhuriyyətin ilk illərinin dərslikləri qadının cəmiyyətdə önəmini vurğulayan nümunələrlə zəngin idi. Bu nümunələrdə qadınlar və kişilər, bir-birini dəstəkləyən və davamlı olaraq bir-birinə kömək edən insanlar kimi təsvir edilmişdir. Cümhuriyyət dövründə qadın hüquqlarında əldə olunan səviyyə, bu dövrlərdəki sosial və mədəni inkişafın təbii nəticəsi kimi görülür [5, s. 95].

Bu dövrdə qadınların təhsili məsələsi ədəbiyyatda da əks olunmuşdur. Xalidə Ədib Adıvar, Rəşad Nuri Güntəkin, Yaqub Qədri Qaraosmanoğlu kimi yazıçılar qadınların təhsil alması və cəmiyyətdəki rolu ilə bağlı fikir və düşüncələrini əsərlərində işləyərək həmin dövrün sosial dəyişikliklərini təmsil etmiş və qadın haqlarını müdafiə etmişlər. Bu yazıçılar, əsərlərində təhsil almış qadınların cəmiyyətin inkişafı üçün önəmli bir rol oynadıqlarını vurğulamış, həmçinin qadınların təhsilinə maneə törədən amilləri də diqqətə çatdıraraq, qadın-kişi bərabərliyi ideyasını təbliğ etmişlər. Təhsilli qadın daha şüurlu olur və seçimlərini daha ağıllı şəkildə edir. Qadınlar seçilən deyil, seçən olduqda, ailə daha sağlam şəkildə formalaşır və bu mühitdə böyüyəcək uşaqlar üçün daha parlaq gələcək təmin edilir. Məhz bu yazıçılar da, qadınların təhsilinin cəmiyyətin tərəqqisinin əsas dayağı olduğunu qeyd etmiş, qadının maariflənməsinin önəmini vurğulayan fikirlər irəli sürərək, qadınların həm özlərini, həm də cəmiyyətlərini dəyişdirə biləcəklərini göstərmişlər.

Şəxsən yaşadığı hadisələrin təsiri ilə qadın problemlərini ən əhatəli və geniş şəkildə əsərlərində əks etdirən müəlliflərdən biri Xalidə Ədib Adıvardır. Xalidə Ədibin ilk romanları avtobioqrafik səciyyə daşıyır. Müəllif sonrakı əsərlərində ictimai həyatda yer olan qadınlardan bəhs edir. Onun romanlarında qadın personajların kişi personajlarına nisbətən ön planda və təsirli şəkildə təsvir edilməsi o dövr üçün mühüm bir yenilikdir. Bu əsərlər, qadınların azadlıq və hüquqları uğrunda mübarizəsinə güclü bir mesaj vermişdir. Qadınların təhsilində yalnız yazıçı kimi deyil, eyni zamanda pedaqoq kimi də fəaliyyət göstərən Xalidə Ədib, romanlarında təhsilli, mübariz, güclü qadın obrazları yaratmış, qadını əsərlərinin mərkəzinə yerləşdirmişdir. Xalidə Ədib romanlarında qadınları dörd qrupa ayırır: Öz həyatını özü qazanan qadınlar, ailə qadınları, əyləncə üçün dərnəklərə qatılan qadınlar və modabaz qadınlar [4, s. 372]. Xüsusilə "Sinəkli baqqal", "Tatarcıq", "Vurun əxlaqsızı", "Səviyyə Talib" kimi əsərlərində qadınların təhsili məsələsi ön plana çəkilir. "Sinəkli baqqal" romanında qadınların təhsilinə qarşı olan ənənəvi düşüncələr yer alır və bu əsərdəki qadın personajı olan Rabia bu düşüncə tərzinə meydan oxuyur. Əsərdəki Rabia obrazı sadəcə təhsilli qadın obrazı deyil, eyni zamanda öz ideyalarını yayan bir qadındır. Əsərdə verilən mesajlardan biri də heç şübhəsiz ki ideal qadının necə olması ilə bağlıdır. Türk qadınlarının xoşbəxt və şəxsiyyət sahibi olmaları üçün təhsil almalarının vacibliyi əsərdə dəfələrlə vurğulanır.

"Səviyyə Talib" romanında müəllif təhsilli, qərb düşüncəsini mənimsəmiş qadın ilə həm şərq, həm də qərb mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən ideal türk qadınını müqayisə edir. Təhsil almaq məqsədilə Qərbə

[112] BDU-nun Türk filologiyası kafedrasının II kurs magistrantı
fidannezirova01@gmail.com

gedən Fahirin özünü tapmaq axtarışı həyatındaki qadınlar vasitəsilə izah edilir. O, ölkədə mədəniyyətin inkişafı üçün çox işlər görülməli olduğunu başa düşür, bunlar arasında ən vacibi isə qadınların mövqeyinin yüksəldilməsidir. Qəhrəmanın fikrincə, qadın mədəniyyətin göstəricisidir. Bu səbəbdən də, roman boyu qadın və mədəniyyət eyni inkişaf xəttində, paralel şəkildə irəliləyir. Əsərdə Səviyyə təhsilli türk qadın obrazı kimi təqdim olunur. O, tək başına ayaqda dura bilən, yanlış evliliyi səbəbindən boşanmağı bacaran savadlı qadın kimi diqqət mərkəzindədir. Səviyyə təhsili sayəsində cəmiyyətin boyunduruğundan azad olub, özünü tapmış bir qadındır.

Cümhuriyyət dövrünün öndə gələn müəlliflərindən biri olan Rəşad Nuri Güntəkinin əsərlərində də qadınların təhsilinin önəmi vurğulanır və qadınlar cəmiyyətin ənənəvi təsirlərindən azad olmağa çalışırlar. O, çalışdığı illər ərzində apardığı müşahidələr nəticəsində məktəblər, şagirdlər, müəllimlər, idarəçilər, müfəttişlər haqqında romanlarında müxtəlif aspektlərdən bəhs etmişdir. Rəşad Nurinin ən məşhur əsərləri olan "Acımaq" və "Çalıquşu" kimi romanlarında qadınların təhsil problemi dövrün patriarxal dəyərləri ilə müqayisə edilmişdir. Bu romanlarında ölkənin təhsil problemlərinə, türk cəmiyyətindəki təhsilsizlik və bunun nəticəsində yaranan yanlış inanclara və onlardan qaynaqlanan məsələlərə toxunur, bu problemlərin həlli yollarını tapmağa çalışır. Rəşad Nuri bu romanlarında baş qəhrəman kimi müəllimləri seçmişdir. Onun romanlarındakı baş qəhrəman olan müəllimlərin hamısı müəyyən dəyərləri özündə birləşdirən idealist şəxsiyyətlərdir. Qələmə aldığı romanlarda ölkənin geriliyindən, bu geriliyin səbəblərindən bəhs edir və bu geriliyin qarşısını ancaq təhsillə almanın mümkün olduğunu qeyd edir. "Çalıquşu" əsərinin baş qəhrəmanı Fəridə obrazı ilə müəllif Anadolu məktəblərinin vəziyyətini gözlər önünə sərir, qadınların təhsilinin cəmiyyətin inkişafına gətirib çıxaracağına dair bir mesaj verir. Fəridə o dövrdə gənc bir qız kimi çətin bir mühitdə yaşamış və təhsil almaq üçün mübarizə aparmışdır. Fəridə ədəbiyyatda yeni bir personaj idi. Çünki o, uşaqlığından etibarən özünü əzdirməyən, asanlıqla ünsiyyət qura bilən, açıq fikirli bir qız idi. Bu xüsusiyyətləri ilə o, cəmiyyətdəki ənənəvi qadın obrazlarından fərqlənirdi. "Çalıquşu" əsəri nəsillər boyu müəllimlik peşəsini üstün tutaraq gənc qızlara örnək olmuşdur. Rəşad Nuri sosial məsələlərə heç vaxt insandan ayrı baxıla bilməyəcəyini görən və göstərən yazıçıdır. Eyni xarakter, duyğu və düşüncəyə sahib insanlara, sosial şəraitlərin fərqliliyi səbəbindən həyatda uğurlu və ya uğursuz ola bilərlər. Bu xüsusiyyətləri "Acımaq" romanında açıq şəkildə görmək mümkündür [3, s. 217]. Romanın baş qəhrəmanı olan Zəhra təhsil alaraq həyatını dəyişdirmək üçün əlindən gələni edir və mübarizə aparır. Zəhra uşaqlıqda yaşadıqlarına görə sərt, soyuqqanlı, mərhəmət hissindən uzaq bir obrazdır. Müəllif, Zəhranın simasında təhsildə fərdi xüsusiyyətlərə əhəmiyyət verməyən və eyni düşüncəyə sahib insanlar yetişdirməyə çalışan müəllimləri tənqid edir. Bununla belə Zəhra, vicdanlı biri olaraq çətinliklərə qarşı əzmkarlıqla mübarizə aparan obrazdır. O, insanın təbii duyğuları olan sevinc, kədər və sevgidən uzaq idi. Lakin atasının gündəliyini oxuyub həqiqəti öyrəndikdən sonra içindəki donmuş duyğular yenidən canlanmış, təhsil anlayışı dəyişmiş, yalnız bilik verməklə deyil, şagirdlərini duyğusal olaraq da dəstəkləməklə əsl müəllim ola biləcəyini başa düşmüşdür.

Yaqub Qədri Qaraosmanoğlu Cümhuriyyət dövrü türk ədəbiyyatında iz qoymuş, əsərlərində qadın obrazlarının təsvirinə xüsusi önəm vermişdir. Xüsusilə, "Yaban" və "Ankara" əsərlərində qadının cəmiyyətdəki roluna diqqət çəkmişdir. "Yaban" romanında qadınların təhsilsizliyi və bu vəziyyətin gətirdiyi gerilik təsvir edilmişdir. Əsərdəki qadın obrazlarından Əminə bu sosial geriliyin simvoludur. Əsərdə hadisələrin xatirə dəftərindən nəql edilməsi, əsərə eyni zamanda avtobioqrafik çalar bəxş edir. Romanda Anadolu kəndinin əhalisinin əksəriyyəti savadsızdır. Əhməd Cəlal kəndlilərin bu düşüncə tərzini dəyişdirməyə çalışsa da, kəndlilər öz köhnə dəyərlərinə sadiq qalırlar. Yaqub Qədri romandakı bu sözlərlə Anadolunun yüzlərlə illik vəziyyətini və ziyalıların onlara baxışını təsvir etmişdir: "Anadolu xalqının ruhu var idi; ona nüfuz edə bilmədin. Zəkası var idi; işıqlandıra bilmədin. Bədəni var idi; ona həyat verə bilmədin. Üzərində yaşadığı torpaq var idi; faydalana bilmədin. Onu, heyvani instinktlər, cahillik, yoxsulluq və qıtlıq arasında buraxdın. O, sərt torpaqla quruyan səmanın arasında vəhşi ottək boy atdı. İndi əlində oraq, biçmək üçün gəlmisən! Nə əkmisən ki, onu biçəcəksən?" [6, s. 111]. Türkiyə Cümhuriyyətinin ilk illərindən bəhs edən "Ankara" romanında müasir Cümhuriyyətçi qadının doğulmasının şahidi oluruq. Bu romanın əsas mövzularından biri qadının cəmiyyətdəki yeri və təhsilin qadınların həyatında oynadığı roldur. Romanın baş qəhrəmanı Səlma şüurlu bir qadın olaraq türk millətinin əfsanəvi mübarizəsi içində evindən çıxaraq öz dolanışığını təmin edən, sosial həyatda özünəməxsus yer qazanan, hörmətli bir şəxsiyyətə çevrilir. Cümhuriyyət qadınının ideal nümunəsi romandakı Səlma obrazı vasitəsilə göstərilir. Əsərdə Osmanlı İmperatorluğunun son dövrlərində, Milli Mübarizə günlərində və Cümhuriyyətin ilk illərində türk qadınlarının ailə və cəmiyyət içərisində üzərinə götürdüyü rolları aydın görmək mümkündür. Osmanlının son illərində İstanbulda savadlı qadınların varlığı Səlma obrazı vasitəsilə təqdim edilir. Lakin ölkənin çətin günlərində bəzi türk qadınlarının əyləncə məkanlarında yad əsgərlərlə vaxt keçirməsi, bu vəziyyətə dərin nifrətlə yanaşan mayor Haqqı bəy vasitəsilə göstərilir. Yaqub Qədri "Ankara" romanında Səlma xanımın timsalında İstanbullu ziyalının Anadolu torpaqlarında, Ankaranın Milli Mübarizənin milli və coşqu dolu atmosferində necə dəyişdiyini, milli dəyərləri vicdanında necə hiss etdiyini, xalqı ilə necə birləşdiyini və sözün əsl mənasında gerçək bir ziyalı şəxsiyyətə necə çevrildiyini təsvir etmişdir [1, s. 305].

Xalidə Ədib Adıvar, Rəşad Nuri Güntəkin və Yaqub Qədri Qaraosmanoğlu kimi yazıçıların əsərlərində qadınların təhsili məsələsi və cəmiyyətdəki yeri realist üslubla təsvir edilmiş, bu əsərlər yeni nəsillərə ilham verən fikirlərin formalaşmasına töhfə vermişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Bağcı R. Yakup Kadri Karaosmanoğlu'nun Ankara Romanında Aydınlar. Fen-Edebiyat Fakültesi Dergisi, №19, 2008, 305 s.
2. Ceylan E. Yeni Türk Medeni Kanunu'na Göre Kadının Hukuki Durumu. Hukuk Fakültesi Dergisi, №2, 2016, 78 s.
3. Enginün İ. Acımak Romanı ve Sosyal Eleştiri. Yeni Türk Edebiyatı Araştırmaları, 1991, 217 s.
4. Enginün İ. Halide Edip Adıvar'ın eserlerinde Doğu ve Batı Meselesi. İstanbul, Dergah Yayınları, 372 s.

5. Karabulut S. 1950'lerde Kadının Sosyalleşmesinde Basının Önemi: Atatürk İlkeleri ve İnkilap Tarihi Araştırma Ve Uygulama Merkezi. №1, 2011, 95 s.
6. Karaosmanoğlu Y. Yaban. İletişim Yayınları. İstanbul, 2017, 111 s.
**Açar sözlər:** Cümhuriyyət, qadın, roman, təhsil, ədəbiyyat
**Ключевые слова:** Республика, женщина, роман, образование, литература
**Keywords:** Republic, woman, novel, education, literature

**Проблема женского образования в литературе периода Республики**
**Резюме**

Писатели республиканской литературы, такие как Халиде Эдиб Адывар, Решад Нури Гюнтекин и Якуб Кадри Караосманоглу, глубоко и всесторонне исследовали положение женщин в общественной жизни. Эти авторы взяли на себя важную задачу – показать место турецких женщин в обществе, создав значительные произведения, подчеркивающие их силу и ценность. Халиде Эдиб Адывар на протяжении всей своей жизни активно защищала права женщин, изображая в своих романах сильных женских персонажей, способных противостоять всему обществу, обладающих социальной и политической влиятельностью. Решад Нури Гюнтекин также в своих романах отражал общественное устройство, а также социальные и культурные особенности своего времени. В центре его романа "Чалыкушу" стоит не только роль женщины в любви и семье, но и ее борьба за самостоятельную жизнь. В произведениях Якуба Кадри Караосманоглу отображены социальные давления, с которыми сталкивались женщины, а также образы женщин, стремящихся занять достойное место в современном мире. Все три автора по-разному подходили к теме женского вопроса, делая ее центральной в своих произведениях и просвещая читателей в этом направлении. Создавая образы женщин своего времени, они наделяли их не только домашними и семейными обязанностями, но и активными и значимыми ролями в различных сферах общественной жизни.

**The Issue of Women's Education in Republican Literature**
**Summary**

The writers of Republican literature, such as Halide Edib Adıvar, Reşat Nuri Güntekin, and Yakup Kadri Karaosmanoğlu, have thoroughly and comprehensively analyzed the position of women in social life. These authors undertook significant responsibilities to highlight the role of Turkish women in society, producing important works that emphasized women's strength and value. Halide Edib Adıvar played an active role in defending women's rights throughout her life, portraying strong female characters in her novels, women who could confront society when necessary and who possessed social and political influence. Similarly, Reşat Nuri Güntekin reflected the social structure, as well as the cultural and social characteristics of his time, in his novels. His novel "Çalıkuşu" not only explores a woman's role in love and family but also centers on her struggle for an independent life. Yakup Kadri Karaosmanoğlu, in his works, depicted the social pressures women faced and portrayed female characters striving to establish their place in the modern world. Each of these three writers placed the issue of women at the core of their works from different perspectives, creating literary pieces that informed readers on this subject. In shaping their female characters, they did not limit them to domestic and familial roles but instead assigned them active and powerful roles in various spheres of society.

**Rəyçi:** f.ü.f.d. Həyat Məmmədova